# TƏHMƏZOV PAŞA QURBAN OĞLU



Təhməzov Paşa 23 mart 1949-cu ildə Lənkəran şəhərində anadan olmuşdur. 1964-cü ildə 6 saylı orta məktəbin səkkizinci sinfini bitirmiş, orta təhsilini fəhlə-gənclər məktəbində davam etdirmişdir. Əmək fəaliyyətinə Əhaliyə Məişət Xidməti İstehsalat Kombinatında usta köməkçisi kimi başlamış, daha sonra usta işləmişdir. 1993-cü il avqustun 23-də Azərbaycanın cənub bölgəsində vəziyyət olduqca gərgin idi. Əlikram Hümbətovun dəstəsi "Talış Muğan Respublikası" yaratmaq istəyən ilə Lənkəranda və ona yaxın olan rayonlarda özbaşınalıq edirdilər. Cinayətkar ünsürlərə qarşı mübarizədə Paşa Təhməzov da Xalq Hərəkatının önündə gedirdi. O, bu cinayətkar dəstə ilə baş verən qaşıdurma zamanı qəhrəmancasına həlak olub. Lənkəran şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı Fərmanı ilə Təhməzov Paşa Qurban oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Lənkəran şəhərindəki küçələrdən biri Milli Qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuş, "23 Avqust" meydanında büstü qoyulmuşdur.